*Həsənova Şəhla Natiq qızı, müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Xarici Dillər Mərkəzi,*
*Email: shahla.namazova @mail.ru*

# KOQNİTİV KATEQORİYALAŞMA PROSESİNİN XÜSUSİYYƏTLƏRİ

Koqnitiv sistemin ən mühüm xüsusiyyəti gerçəkliyin predmet və hadisələrinin əslində onların konseptlərinin kateqoriyalar üzrə təsnifatı prosesini, yəni onların müəyyən dərəcə, qrup və ya siniflərə bölgüsünü həyata keçirmək qabiliyyəti hesab edilir. Məsələ burasındadır ki, insanı əhatə edən aləm bir-birindən rənginə, ölçülərinə və ya funksiyalarına görə fərqlənən sonsuz obyektlər çoxluğundan ibarətdir, amma bununla belə həmin obyektlərin hamısı strukturlaşmaya gəlir. Hətta predmetlər arasında dəqiq sərhədlər olmadıqda belə insan onlar arasındakı oxşar və fərqli cəhətləri haqqında mülahizə yürüdür və müəyyən təsnifat apara bilir. Qəbul edilən informasiyanın kateqoriyalaşması insan beynində biliklərin əsas sistematikləşdirilməsi və təşkili üsullarından biri hesab edilir.

Təbii fenomenlərin kateqoriyalaşması psixoloji baxımdan xeyli mürəkkəb pro-

sesdir. Ona aşağıdakı məqamlar daxildir:

1. Stimulların seçimi (selection of stimul): insanın sensor sistemləri (görmə, dinləmə, taktil və s.) tərəfindən qəbul edilən stimullardan yalnız bir neçə ən əhəmiyyətlisi koqnitiv işləmələr üçün seçilir. İdentikləşdirmə və təsnifat seçilmiş stimulların yaddaşda saxlanılan relevant biliklərlə tutuşdurulması yolu ilə əldə edilir.

2. Ad (naming): koqnitiv kateqoriyaların çoxuna ad verilir. Doğrudur, onların bəziləri xüsusi adlandırılmır. Məsələn: “things to eat on a diet”, “things to pack in a suitcase”.

Mental kateqoriyalaşma prosesini xeyli dərəcədə determinasiya edən mexanizm tədqiqatçıların fikrincə, “təfəkkür qənaəti” adlanan prinsipdir. Beyin buna müvafiq olaraq predmetləri müəyyən verilmiş kateqoriyalar üzrə “bölüşdürürərək” böyük həcmdə verilənləri işləməkdə öz işini xeyli dərəcədə “asanlaşdırır”. Beyinin bu xüsusiyyəti çox vaxt mürəkkəb fenomenləri onlarla oxşar görünən başqaları ilə eyni məxrəcə gətirməklə onların bəsitləşdirilmiş interpretasiyasını doğurur, bu isə sosial kateqoriyalaşma çərçivəsində ciddi nəticələrə gətirə bilir.

Hazırda insan təcrübəsinin kateqoriyalaşmasına iki tədqiqatçı yanaşmasından danışmaq olar:

1) Ənənəvi və ya klassik – onun yaranması Aristotelin adı ilə bağlıdır;

2) “Yeni”, alternativ, prototipik.

Aristotelin klassik məntiqinə görə, kateqoriyanı bu və ya digər mahiyyəti ona aid etmək üçün zəruri və yetərli olan əhəmiyyətli əlamətlər dəsti müəyyənləşdirir. Bu isə o deməkdir ki, əgər götürülmüş “vahid” lazımi əlamətlər dəstinə malikdirsə, kateqoriyaya daxildir, malik deyilsə, deməli, daxil deyil. Obyektin kateqoriyaya az və ya çox dərəcədə mənsubluğu nəzərdə tutulmur. Kateqoriyalar diskretdir, onlarda qeyri-dəqiq sərhədlər ola bilməz və ciddi daxili təşkil də yoxdur.

Müasir baxışlara görə, elementin kateqoriyaya mənsubluğu onda bu kateqoriyaya aid edilmək üçün mütləq olan əlamətlərin məcmusu ilə deyil, onun prototiplə oxşarlığı və ya bənzərliyi əsasında müəyyənləşir. Bu zaman prototip dedikdə ən yaxşı və bizim predmet haqqında təsəvvürlərimizin mühüm xüsusiyyətlərini əks etdirən ən tipik nümayəndəsi nəzərdə tutulur. Prototip kateqoriyanın mərkəzi nüvəsi kimi götürülür, hər hansı parametrlərinə görə prototipdən fərqlənən vahidlər də həmin kateqoriyaya daxil edilir, lakin onun civar elementləri qismində. Bu isə o deməkdir ki, koqnitiv kateqoriyaya daxil olanlar prototipə yaxın və ya uzaq ola bilirlər.

E.Roş bu müddəanı «bird» kateqoriyasının timsalında nəzərdən keçirir. Quşları başqa canlılardan fərqləndirmək üçün dəqiq meyarların olmasına baxmayaraq, insanlar quşların yalnız bir qismini bu kateqoriyaya “yaxşı” misal hesab edirlər. Məsələn, sərçə “quş” kateqoriyasının tipik nümayəndəsidir, toyuq, qartal, pinqvin kateqoriyanın tipik nümayəndəsi hesab oluna bilməz və buna görə də kateqoriyanın civarlarını əmələ gətirirlər.

Beləliklə, klassik məntiqdən fərqli olaraq kateqoriyalaşmanın koqnitiv nəzəriyyəsi aşağıdakıları irəli sürür: kateqoriyaların dəqiq müəyyənləşdirilmiş sərhədləri yoxdur; onların daxili struktur və elementləri fərqləndirilir; vahidlərin kateqoriyaya daxil edilməsi birmənalı deyil və danışanın qərarından və onun prototipinə oxşamayan elementlərə dözməsindən asılıdır.

Koqnitivistlər müəyyənləşdirmişlər ki, təsnifatlaşdırmanın mental prosesinin “məhsulları”, yəni kateqoriyalar kateqoriyalaşmanın baza səviyyəsindəki sözlər əsasında

daha üzvi inkişaf edirlər. Bu səviyyə (basic-level) ən yüksək səviyyə (superordinate) ilə aşağı səviyyə (subordinat) arasında ara vəziyyətindədir və məsələn, maşın, təyyarə, gəmi kimi leksik vasitələrlə əks olunur, lakin bunlar daha ümumiləşdirici nəqliyyat vasitəsi və daha konkret jiquli, konkord, boinq deyil. Baza səviyyəli kateqoriya sözləri nitqdə istifadədə ən qısa, neytral, daha tez-tez işlədiləndirlər. Onlar uşaqlar tərəfindən birinci növbədə mənimsənilir və dildə başqa sözlərdən əvvəl yaranaraq onun əsasını təşkil edir.

C.Lakoff əyani şəkildə göstərir ki, yapon dilində (eynən başqa dillərdə də) klassifikatorlar vasitəsilə həyata keçirilən kateqoriyalaşma prosesində bunlar iştirak edə bilərlər:

- metonimik köçürüm ağac və qılınc yarışda əsas funksional predmetlərdir, buna görə də onlarda qələbəni bildirən söz bu sahədəki fəaliyyətin əsas məqsədi ilə işlədilir;
- metaforik köçürüm (telefon danışığı ilə bağlı konvensional obraz – telefon xətləri nazik, uzun predmetin sxematik təsəvvürünə müvafiqdir və kommunikasiyanın əsas metaforunu – kanalı realizə edir.) C.Lakoffun gəldiyi nəticələrdən biri budur ki, təsnifləşdiricidən istifadə baza səviyyəli obyektlərin bildirilməsindən (dəyənək, şam, ağac) başqa, obyektlərin müəyyənləşdirilməsinə ünvanlanır, yəni kateqoriya radial strukturludur. Hesab etmək olar ki, sonuncular, bir növ, kateqoriyanın civarlarını təşkil edirlər.

C.Lakoff kateqoriyalaşmanın təbii nəzəriyyəsini xeyli "gücləndirir", elm aləminə "radial struktur", "ideallaşdırılmış koqnitiv model" İKM, "prototipik effektlər" kimi anlayışları daxil etməklə və kateqorial metonimiya əsasında prototip tiplərini sosial stereotiplər, tipik misallar, ideallar, nümunələr, xüsusi modellər və b. fərqləndirməklə, onun müddəalarını inkişaf etdirir. Prototipik tiplərin mahiyyəti bundadır ki, kateqoriyanın ayrıca götürülmüş elementi hər hansı koqnitiv məqsəd üçün bütün kateqoriyanı əvəzləməyə qabildir.

Maraqlıdır ki, "ideologiya" kimi mürəkkəb sahənin konseptuallaşmasında insanlar çox vaxt tipik misallar, stereotiplər və ya ideal obrazların "istifadə edilməsinə" cəhd edirlər. Məlumdur ki, müasir Amerika cəmiyyətində bir ideologiya tədricən təsirini itirir, "dəbdən düşür", digəri məsələn, feminizm isə ildən-ilə güclənir və özünə daha çox yer alır. Amma ideologiyaya tipik nümunə kimi daha çox kommunizm, sosializm, kapitalizm, faşizm kimi hazırda ən aktual olmayan doktrinaların adı səsləndirilir. Xüsusi sorğu ədəbiyyatında da misal qismində məhz bu ideologiyaların adı səsləndirilir. Bununla belə qeyd etmək lazımdır ki, məsələn, dil daşıyıcılarının bir qisminin şüurunda feminizm anlayışı haqqında dəqiq fikir formalaşmayıb, yəni onun ideologiya olub-olmamasının özü belə tam aydın deyil.

## İstifadə olunmuş ədəbiyyat:


1. Lakoff G. Women, fire and dangerous things: What categories reveal about the mind/ G.Lakoff –Chicago: University of Chicago Press, 1987, 614 p.
2. Lakoff G. Phylosophy in Flesh. The Embodied Mind and its Challenge to Western Thought/ G.Lakoff MNJonson – New York: Perseus Press, 1999, 940 p.
3. Langacker R.W. An overview of Cognitive grammar/ R.W. Langarcker, Oxford University Press, 1988, 730 p.
4. Reed St.R Cognition. Theory and application/ St.R. Reed – San Diego: Brooks – 1996, 322 p.